**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№ 060/380**

**Bakı şəhəri** „24" sentyabr 2024-cü il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-cü il 16-23 sentyabr tarixli rəsmi məlumatlarına əsasən, Portuqaliya Respublikasının Evora (Evora) dairəsində, İsveç Krallığının Skane (Skane) əyalətində, Norveç Krallığının Roqaland (Rogaland), İsveçrə Konfederasiyasının Arqau (Aargau), Tiçino (Ticino) kantonlarında, Danimarka Krallığı Şimali Yutlandiya (Nordjylland), Zelandiya (Sjælland), Fransa Respublikasının Pei de la Luar (Pays de la Loire), Mərkəz-Luara vadisi (Centre-Val de Loire), Normandiya (Normandie), Burqundiya–Franş-Konte (Bourgogne-Franche-Comté), İl-de-Frans (Île-de-France), İtaliya Respublikasının Pyemont (Piemonte), Siciliya (Sicily), Lombardiya (Lombardia), Kalabriya (Calabria), Emiliya-Romanya (Emilia-Romagna), Liquriya (Liguria), İngiltərənin Şərqi Midland (East Midlands), Cənub-Şərqi İngiltərə (South East England), Cənub-Qərbi İngiltərə (South West England) regionlarında blutanq, Fransa Respublikasının Mərkəz-Luara vadisi (Centre-Val de Loire) regionunda isə epizootik homorraji xəstəlikləri qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Portuqaliya Respublikasının Evora dairəsində, İsveç Krallığının Skane əyalətində, Norveç Krallığının Roqaland, İsveçrə Konfederasiyasının Arqau, Tiçino kantonlarında, Danimarka Krallığı Şimali Yutlandiya, Zelandiya, Fransa Respublikasının Pei de la Luar, Mərkəz-Luara vadisi, Normandiya, Burqundiya–Franş-Konte, İl-de-Frans, İtaliya Respublikasının Pyemont, Siciliya, Lombardiya, Kalabriya, Emiliya-Romanya, Liquriya, İngiltərənin Şərqi Midland, Cənub-Şərqi İngiltərə, Cənub-Qərbi İngiltərə regionlarında blutanq, həmçinin Fransa Respublikasının Mərkəz-Luara vadisi regionunda epizootik homorraji xəstəliklərinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Portuqaliya Respublikasının Evora dairəsində, İsveç Krallığının Skane əyalətində, Norveç Krallığının Roqaland, İsveçrə Konfederasiyasının Arqau, Tiçino kantonlarında, Danimarka Krallığı Şimali Yutlandiya, Zelandiya, Fransa Respublikasının Pei de la Luar, Mərkəz-Luara vadisi, Normandiya, Burqundiya–Franş-Konte, İl-de-Frans, İtaliya Respublikasının Pyemont, Siciliya, Lombardiya, Kalabriya, Emiliya-Romanya, Liquriya, İngiltərənin Şərqi Midland, Cənub-Şərqi İngiltərə, Cənub-Qərbi İngiltərə regionlarında, zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

3. Fransa Respublikasının Mərkəz-Luara vadisi regionunda, zonalaşma prinsipi nəzərə alınmaqla, bütün növ diri gövşəyən heyvanların, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.7-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

4. Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci və 3-cü bəndlərində adıçəkilən inzibati ərazi vahidlərinin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

5. Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci və 3-cü bəndlərində qeyd olunan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

6. Bu qərarın 2-ci və 3-cü bəndlərinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

7. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

8. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

9. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer